


# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

26 fevral 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 8 (3771)


# Qlobal sülhə töhfə



## Azərbaycan dünya nizamının qurulmasında iştirak edir

***Prezident İlham Əliyevin Sülh Şurasının ilk iclasında iştirakı Azərbaycanın qlobal təhlükəsizlik məsələlərinə münasibətdə məsuliyyətli və prinsipial mövqe sərgilədiyini göstərir.***

Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyi son illərdə keyfiyyətcə yeni mərhələyə yüksəlib. Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfəri və Vaşinqtonda keçirilən Sülh Şurasının ilk iclasında iştirakı bu yüksəlişin növbəti təsdiqi kimi dəyərləndirilir. Səfər təkcə diplomatik təmaslar baxımından əhəmiyyət daşımır. Bu, Azərbaycanın qlobal sülh gündəliyində fəal iştirak edən və təşəbbüs irəli sürən dövlət kimi qəbul olunmasının göstəricisidir.

Vaşinqtonda keçirilən Sülh Şurasının ilk iclası yeni diplomatik mexanizmin formalaşması baxımından mühüm mərhələ hesab olunur. Azərbaycanın bu prosesdə təsisçi üzv qismində yer alması dövlətimizin qlobal təhlükəsizlik məsələlərinə münasibətdə məsuliyyətli və prinsipial mövqe sərgilədiyini göstərir.

Sülh Şurası təşəbbüsü son dövrlər beynəlxalq siyasi diskussiyalarda xüsusi yer tutur. Qlobal münaqişələrin artdığı, ənənəvi mexanizmlərin effektivliyinin sual altına düşdüyü bir vaxtda yeni platformaların meydana çıxması obyektiv zərurət kimi qiymətləndirilir. Vaşinqtonda keçirilən ilk iclas bu təşəbbüsün institusional əsaslarının formalaşdırılması istiqamətində atılmış addım oldu. Azərbaycan Prezidentinin həmin iclasda iştirakı ölkəmizin prosesə siyasi dəstəyini açıq şəkildə nümayiş etdirdi.

Vaşinqtondakı tədbirdə ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidentinə birbaşa müraciətləri və dialoqu xüsusi vurğulaması diqqətdən yayınmadı. Eyni zamanda Ermənistanın Baş naziri Nikol Paşinyan ilə baş tutan təmas və əl sıxma səhnəsi qlobal auditoriyaya regionda sülh iradəsinin mövcudluğunu nümayiş etdirdi. Bu məqam Azərbaycanın təşəbbüs göstərən tərəf kimi qəbul edildiyini bir daha ortaya qoydu.

Azərbaycanın sülh siyasəti konkret nəticələrə əsaslanır. İşğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri aparılır, infrastruktur layihələri reallaşdırılır, keçmiş münaqişə zonasının iqtisadi inteqrasiyası təmin olunur. Bu praktiki təcrübə münaqişədən sonrakı mərhələnin idarə olunması baxımından mühüm model kimi təqdim edilə bilər. Azərbaycanın qlobal sülh təşəbbüslərində iştirakı məhz bu reallıqlara söykənir.

Prezident İlham Əliyevin ABŞ səfəri Azərbaycanın xarici siyasətində yeni mərhələnin ifadəsi kimi dəyərləndirilə bilər. Bu səfər göstərdi ki, Azərbaycan qlobal gündəlikdə passiv müşahidəçi mövqeyində deyil. Ölkəmiz təşəbbüs irəli sürən, dialoq quran və nəticəyə yönəlmiş siyasət yürüdən aktordur. Sülh Şurasının ilk iclasında iştirak Azərbaycanın beynəlxalq təhlükəsizlik sistemində artan rolunun və nüfuzunun bariz nümunəsidir.

Bugünkü reallıq ondan ibarətdir ki, qlobal sabitlik yalnız böyük güclərin deyil, məsuliyyətli regional dövlətlərin də fəal iştirakı ilə mümkündür. Azərbaycan bu prosesdə öz sözünü deməyə qadirdir. Vaşinqton səfəri və Sülh Şurasında iştirak ölkəmizin sülh, sabitlik və əməkdaşlıq prinsipinə sadiqliyini nümayiş etdirməklə yanaşı, beynəlxalq münasibətlər sistemində möhkəmlənən mövqeyini bir daha təsdiqlədi.

# Azərbaycan etibarlı tərəfdaşdır




## Enerji ixracı coğrafiyası genişlənəcək

**2015-ci ildən başlayaraq, ildə bir dəfə Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının iclası keçirilir. Azərbaycanın təşəbbüsü və aparıcı qüvvəsi ilə həyata keçirilən bu möhtəşəm layihənin gerçəkləşməsində həmin iclasların mühüm rolu olub. Belə ki, Məşvərət Şurası il boyu görülən işlərə yekun vurur, qarşıdakı işləri müəyyənləşdirir.**

Məşvərət Şurası hər il Bakıda toplaşır. Çünki zaman qarşıya yeni tələblər, yeni vəzifələr qoyur. Azərbaycandan qaz idxal edən ölkələrin sayı getdikcə çoxalır. Məhz bu məqsədlə Məşvərət Şurası hər il özünün növbəti toplantısını keçirir. Biz artıq 12-ci iclasın ərəfəsindəyik. Toplantının bu ilin birinci rübü ərzində keçiriləcəyi gözlənilir. Son bir neçə ildə bu tədbirlə eyni vaxtda "Yaşıl enerji" Məşvərət Şurasının da iclası baş tutur. Bu il həmin istiqamətdə sayca dördüncü iclas olacaq.

İndi bizdən 16 ölkə - Gürcüstan, Türkiyə, İtaliya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya qaz alır. Keçənilki toplantıdan əvvəl isə onların sayı 12 idi. Azərbaycan qazının ixrac coğrafiyası daha da genişlənəcək. İxracın artması isə öz növbəsində hasilatın artmasını, infrastrukturun genişlənməsini, şaxələnməsini tələb edir. Qaldı ki, bərpaolunan enerji məsələsinə, burada da nailiyyətlər, planlar, görüləcək işlər çoxdur. Azərbaycanın "yaşıl enerji" gündəliyi artıq bütün dünyaya bəllidir. Hələ 2020-ci ildə ölkəmiz növbəti 10 ildə, yəni 2030-cu ilə qədər elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin (BOEM) payını 30 faizə çatdırmağı hədəfləyib. Gələn il BOEM-in payının artıq 25 faizə çatdırılacağı nəzərdə tutulur. Azərbaycan bu məqsədlərə doğru inamla irəliləyir.

## Prezident naziri qəbul edib

### İkitərəfli məsələlər müzakirə edilib

Prezident İlham Əliyev fevralın 23-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının həmsədri Fərzanə Sadiqin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən Azərbaycanla İranın birgə icra etdiyi layihələrin həm ölkələrimiz, həm də region üçün geniş imkanlar açacağını deyib.

Söhbət zamanı ikitərəfli gündəliyin genişlənməsini məmnunluqla qeyd edən dövlətimizin başçısı Fərzanə Sadiqin ölkəmizə səfəri çərçivəsində bu məsələlərin müzakirə ediləcəyinə və səfərin yaxşı nəticələrinin olacağına ümidvarlığını bildirib. Qonaq dövlətimizin başçısına minnətdarlığını ifadə edib.

Görüş zamanı Bakıda keçiriləcək "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadiyyat, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyası"nın 17-ci iclasının əhəmiyyətinə toxunulub, Şimal-Cənub nəqliyyat dəhlizi, Araz çayı üzərində Ağbənd və Kələlə məntəqələrini birləşdirən avtomobil körpüsünün inşası və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

## Azərbaycandan tolerantlıq nümunəsi

### Ölkəmiz dinlərarası dialoqa töhfə verir

Prezident İlham Əliyev Vaşinqtonda Amerika İsrail İctimai Əlaqələr Komitəsinin (AIPAC) icraçı direktoru Elliot Brandt və digər rəhbər heyəti ilə görüşüb.

Söhbət zamanı dövlətimizin başçısı Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin əsrlər boyu harmoniya şəraitində yaşadıqlarını vurğulayıb, tolerant mühitin ölkəmiz üçün tarixən həyat tərzi olduğunu deyib.

Görüşdə Azərbaycanın dinlər və mədəniyyətlər arasında dialoq prosesinə qlobal səviyyədə verdiyi töhfələr yüksək qiymətləndirilib. Həmçinin Azərbaycan-ABŞ əlaqələrinə toxunulub, Donald Trampın hakimiyyətə gəlməsindən sonra ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyi vurğulanıb.

Görüşdə ölkəmizlə bu təşkilat arasında əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## Birinci vitse-prezidentdən təbrik

### Sosial şəbəkə hesablarında paylaşım edib

Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan ayının başlanması münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.

Paylaşımda deyilir: "Ramazan ayınız mübarək!

Bütün dünya müsəlmanlarını Ramazan ayının başlanması münasibətilə təbrik edir, Allahdan hər kəsin dua və orucunun qəbul olunmasını diləyirəm".


Nazir gənclərin sırasından seçim edib...2

Sabahın zabitləri....................................3

Xidmət nümunəsi..................................3

Rəssam yoxsa kriminalist?..................4

# Daxili işlər naziri vətəndaş qəbulu və sıra baxışı keçirəcək

## Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər

Yevlax Rayon Polis Şöbəsinin inzibati binasında baş tutacaq qəbulda Yevlax, Mingəçevir, Ağdaş, Ucar və Kürdəmir rayonlarının sakinləri iştirak edə bilərlər.

Qəbula yazılmaq istəyən vətəndaşlar Nazirliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı 01.03.2026-cı il tarixinədək yaşadıqları ərazinin polis orqanına, habelə Nazirliyin "E-Polis" mobil tətbiqi, e-xidmet.mia.gov.az elektron xidmət portalı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Polis orqanlarında və daxili qoşunlarda xidmət etmək arzusunda olan namizədlərin sıra baxışı martın 2-də 08:00-da Yevlax Olimpiya İdman Kompleksində keçiriləcək.

Qeyd edək ki, qəbula və sıra baxışına gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# Respublika Xəbərləri

### Əməkhaqları hər il artacaq

Prezident İham Əliyev Əmək Məcəlləsinə edilən dəyişiklikləri təsdiqləyib. Bu, vahid tarif cədvəlinə uyğun olaraq əməkhaqqı alan vətəndaşlarımızın və özəl sektorda çalışanların maaşının artması deməkdir. Çünki yeni dəyişikliyə əsasən minimum əməkhaqqının ildə ən azı bir dəfə artırılması həyata keçiriləcək.

### İctimai Şuraya seçkilər keçirilib

Daxili İşlər Nazirliyi yanında İctimai Şuraya yeni tərkib üzrə seçkilər keçirilib. Şuranın tərkibi 7 nəfərdən ibarət müəyyən edilib və bu yerlər üzrə 14 vətəndaş cəmiyyəti nümayəndəsinin namizədliyi qeydə alınıb. Səsvermədə 227 təşkilatın nümayəndəsi iştirak edib. Səsvermənin nəticələrinə əsasən seçkilərdə iştirak etmiş seçicilərin yarıdan çoxunun səsini toplamış namizədlər DİN yanında İctimai Şuranın üzvləri seçiliblər.

### Sosial ödəmələr artıb

Bu ilin yanvar ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu dövlət büdcəsi hesabına 892 min şəxsə 175 milyon manat müavinət və Prezident təqaüdü ödəyib. Məlumata görə, ötən ilin eyni dövrünə müavinətlər üzrə ödənilən vəsait 16 faiz, Prezident təqaüdləri üzrə ödənilən vəsait isə 18 faiz çox olub.

### Xocalı faciəsi unudulmayacaq

Ölkə ərazisində və beynəlxalq miqyasda Xocalı faciəsilə bağlı silsilə tədbirlər keçirilib, faciə qurbanlarının xatirəsi yad edilib. Tədbirlərdə 34 il öncə dinc əhaliyə qarşı törədilmiş vəhşiliyin insanlığa qarşı cinayət olduğu bildirilib və bu faciənin unudulmayacağı vurğulanıb. Xocalı şəhərinin artıq işğaldan azad olunduğu və doğma sakinlərinin bu gün öz yurd yerlərinə qayıtdıqları qeyd edilib.

### Yeniyetmələr üçün xüsusi kabinet yaradılıb

Sosial Xidmətlər Agentliyi ilə Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin əməkdaşlığı çərçivəsində xidmətin Yetkinlik yaşına çatmayanlar üçün penitensiar müəssisəsində sosial-psixoloji kabinet fəaliyyətə başlayıb. Kabinetin məqsədi yeniyetmə məhkumların psixoloji vəziyyətinin qiymətləndirilməsi, onların sosial adaptasiya bacarıqlarının inkişaf etdirilməsi və cəmiyyətə reinteqrasiyasına dəstək göstərilməsidir.

### Ağdərəyə növbəti köç

Fevralın 23-də Ağdərə rayonunun dörd yaşayış məntəqəsinə ümumilikdə 293 nəfərdən ibarət 63 ailə qayıdıb. Bu mərhələdə Çıldıran kəndinə 46 nəfər (10 ailə), Çapar kəndinə 22 nəfər (7 ailə), Aşağı Oratağ kəndinə 141 nəfər (29 ailə), Heyvalı kəndinə isə 84 nəfər (17 ailə) köçürülüb.

### Naxçıvana quru yol açılır

Araz çayı üzərində Ağbənd və Kələlə məntəqələrini birləşdirən avtomobil körpüsünün tikintisi artıq başa çatıb və sərhəd-gömrük infrastrukturunun inşası tamamlandıqdan sonra körpünün istismara verilməsi nəzərdə tutulur. Layihə Şərqi Zəngəzur iqtisadi rayonunu Naxçıvanla ən qısa və səmərəli marşrutla birləşdirəcək, eyni zamanda Fars körfəzi ilə Qara dənizi əlaqələndirən əlverişli avtomobil marşrutunun mühüm tərkib hissəsini təşkil edəcək.

# Nazir gənclərin sırasından seçim edib

## Növbəti mərhələyə buraxılan 175 nəfərin 14-ü Vətən müharibəsi iştirakçısıdır

**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov fevralın 19-da respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**







Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 175 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 14 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir Vilayət Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Xəzər onlara əmanətdir

## Su nəqliyyatında təhlükəsizlik əsas vəzifələrdəndir






Xəzər dənizi Azərbaycan üçün təkcə coğrafi məkan sayılmır, iqtisadiyyatın, energetikanın, beynəlxalq ticarətin və ekoloji tarazlığın dayağı kimi çıxış edir. Buna görə hər dəniz ölkəsi kimi su nəqliyyatı Azərbaycan üçün də strateji sahədir. Bu geniş akvatoriyada təhlükəsizliyin təmin olunması milli təhlükəsizliyə bərabərdir. Dənizdə hərəkət edən hər bir gəmi, daşınan hər bir yük, səfərə çıxan hər bir sərnişin arxayınlığı hissini məhz peşəkar mühafizə sisteminə borcludur. Bunu isə Daxili İşlər Nazirliyi Nəqliyyatda Baş Polis İdarəsinin Su Nəqliyyatında Polis İdarəsi təmin edir. Xəzər dənizinin Azərbaycan Respublikasına aid sektorunda asayişə nəzarət edən İdarə dənizdə və respublikanın digər su tutarlarında ekoloji cinayətkarlığa qarşı ardıcıl mübarizə aparır. Yəni xidmətin fəaliyyət dairəsi yalnız açıq dənizlə məhdudlaşmır. Çaylar, göllər, su anbarları da diqqət mərkəzində saxlanılır. Bu geniş coğrafiya ölkənin su hövzələrində vahid təhlükəsizlik mühitinin qorunmasına xidmət göstərir.

### Xidmət öhdəlikləri icra olunur

Bu baxımdan polis ölkənin dəniz nəqliyyatı və enerji infrastrukturunun mühafizəsində də xüsusi rol oynayır. Dövlət əhəmiyyətli qurumlara məxsus obyektlərdə təhlükəsizlik tədbirləri gücləndirilmiş qaydada həyata keçirilir. Heç kəsə sirr deyil ki, bu obyektlər ölkə iqtisadiyyatının strateji sütunlarıdır. Polis əməkdaşları fasiləsiz patrul xidməti, operativ məlumatların yoxlanılması və qabaqlayıcı tədbirlər vasitəsilə mümkün riskləri minimuma endirməklə dənizdə və liman ərazilərində təhlükəsizliyi təmin edir ki, bununla beynəlxalq tərəfdaşların da etimadını möhkəmləndirirlər.

### Ekoloji təhlükəsizlik prioritet istiqamətdir

Xəzər dənizində zəngin bioloji ehtiyatların qorunması gələcək nəsillər qarşısında məsuliyyət deməkdir. Bu baxımdan Su Nəqliyyatında Polis İdarəsinin fəaliyyətində ekoloji cinayətkarlıqla mübarizə xüsusi yer tutur. Qanunsuz balıq ovu, partlayıcı maddələrdən və elektrik gücləndiricilərindən istifadə, su hövzələrinin çirkləndirilməsi kimi hallara qarşı sərt tədbirlər görülür. Bu istiqamətdə digər dövlət qurumları ilə birgə profilaktik tədbirlər təşkil olunur. Koordinasiyalı fəaliyyət nəticəsində Xəzər akvatoriyasında və digər su hövzələrində çoxsaylı hüquqpozmaların qarşısı vaxtında alınır. Qanunsuz ov alətləri müsadirə edilir, qanun pozuntusuna yol verən şəxslər məsuliyyətə cəlb olunurlar.

2025-ci il üzrə göstəricilər aparılan işin miqyasını aydın göstərir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 103 fakt qeydə alınıb. Ekoloji cinayətkarlıq sahəsində aşkar edilən cinayətlərin sayı 94 fakt təşkil edib. İnzibati xətalar üzrə 100-dən çox protokol tərtib edilib. Qanunsuz balıqçılıq fəaliyyəti ilə məşğul olan şəxslərdən 8 ton müxtəlif növ balıq, xüsusi mühərriklə təchiz edilmiş qayıqlar, sintetik torlar və ov silahları götürülüb. Müvafiq dövlət orqanları ilə birgə keçirilən tədbirlər nəticəsində kustar üsulla hisə verilərək balıq məhsulları hazırlayan sexlər də aşkar olunub, materiallar aidiyyəti üzrə göndərilib. Həmçinin, Xəzər dənizinin dibi ilə çəkilən dəmir boru kəmərlərini, müxtəlif təyinatlı naqilləri oğurlayan şəxslərə qarşı da mübarizə davam etdirilir. Qeyd edilən bütün faktlar Xəzərin bioloji ehtiyatlarının qorunması və təbiətin talanmasının qarşısının alınmasında polisin xidmətini dəqiq ifadə edir.

### Qoruq və milli parklara nəzarət edilir

Sahilboyu ərazilərdə yerin təkindən qanunsuz istifadə halları da diqqətdən kənarda qalmır. Ötən il də dövlət qoruqları və milli parkların ərazisində aparılan nəzarət tədbirləri nəticəsində qanunsuz qum çıxaran, dəniz hövzəsindən düzgün istifadə etməyən şəxslər saxlanılıb, barələrində qanunamüvafiq tədbirlər görülüb. Təbiətə vurulan ziyanın qarşısı vaxtında alınıb.

### Maarifləndirmə və profilaktika təbiəti qorumağa yönəlib

Maarifləndirmə tədbirlərindən hüquqpozmanın qarşısını almağın təsirli vasitələrindən biri kimi istifadə olunur. Hər ilin aprel və may aylarında qanunsuz balıq ovuna qoyulan məhdudiyyət dövründə profilaktik tədbirlər gücləndirilir. Balıqartırma zavodlarının kollektivləri, balıqçılar və sahilboyu yaşayan sakinlərlə görüşlər təşkil olunur. Brakonyerliyə qarşı mübarizə, balıqların təbii kürüləmə yerlərinin mühafizəsi, miqrasiya şəraitinin yaxşılaşdırılması mövzularında izahat işləri aparılır. Xəzərdə nəsil artımı üçün buraxılan nərəkimilərin ovlanmasının qanunsuz olduğu, süni və təbii artırılmasının əhəmiyyəti ictimaiyyətin diqqətinə çatdırılır. Dövlət qoruqları, milli parklar, dəniz və digər su hövzələrində balıq ovu ilə məşğul olmaq istəyənlərə ov zamanı kimyəvi, zəhərli və partlayıcı maddələrdən, eyni zamanda sintetik tor, elektrik cərəyanı, itiuclu qarmaq kimi ov alətlərindən istifadə etmək qəti qadağan olduğu barədə məlumatlar verilir.

Həmçinin, Xəzər dənizinin dibi ilə çəkilən dəmir boru kəmərlərini, müxtəlif təyinatlı naqilləri oğurlayan şəxslərə qarşı da mübarizə davam etdirilir.

Bir sözlə, Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları tərəfindən Xəzər dənizində, xidməti ərazi olan qoruq və su hövzələrində təhlükəsizlik tam təmin edilir.

Xüsusən Xəzər dənizində təhlükəsizlik sabitliyin, iqtisadi inkişafın və ekoloji tarazlığın əsas şərtidir. Su polisinin fəaliyyəti bu sabitliyin qorunmasına yönəlmiş sistemli və məqsədyönlü xidmətin ən bariz nümunəsidir. Su bioresurslarının qorunması və ekoloji tarazlığın təmin edilməsi məqsədilə su polisləri tərəfindən bundan sonra da müvafiq dövlət qurumları ilə birgə mütəmadi olaraq nəzarət tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur.

# Zirvədən zirvəyə

## Murovdağdan şəhidlik məqamına ucalan ömür



Vətən müharibəsindən Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı hərbi qulluqçuları şərəflə çıxıblar. Onlar Müzəffər Ali Baş Komandanın etimadını və xalqımızın inamını doğruldaraq döyüş meydanında şanlı tarix yazdılar. Şəhidlik zirvəsinə ucalaraq adları Vətənlə qoşa çəkilənlərin əksəriyyəti də xüsusi təyinatlı hərbçilərimizdir.

Xüsusi təyinatlı dəstənin hərbi qulluqçusu olmuş əsgər Bağırov Elnur Zeynal oğlu da Vətən müharibəsində şəhadətə yüksəlib.

O, 1996-cı il martın 6-da Cəlilabad rayonunun Privolnoye kəndində doğulub, kəndin 2 saylı tam orta məktəbində təhsil alıb, rayondakı peşə liseyini bitirib.

Müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxıldıqdan bir neçə ay sonra - 2016-cı il mayın 7-dən etibarən Elnur Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Həmin tarixdən Vətən müharibəsinədək "N" saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmət edib.

Elnur Vətən müharibəsi başlayan andan döyüş əməliyyatlarına ilk qatılan hərbi qulluqçuların sırasında olub. O, mürəkkəb relyefə və çətin iqlim şəraitinə malik Kəlbəcər rayonu ərazisində, Murovdağ istiqamətində son nəfəsinədək mərdliklə vuruşub.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda ordumuz ön cəbhənin müxtəlif istiqamətlərində erməni işğalçılarına qarşı əks-hücuma keçib. Onun dəstəsinin şəxsi heyəti də döyüşlərə qatılıb. Digər qoşun növlərinin Xüsusi Təyinatlı Qüvvələri ilə birlikdə Murovdağ silsiləsinin bir neçə yüksəkliyi istiqamətində vuruşub. Ömər aşırımında düşmənin mühüm postları ələ keçirilib. Kəlbəcər rayonunun Susuzluq kəndi istiqamətində hərəkət edərkən Elnurun yaxınlığına erməni artilleriyasından atılmış mərmi düşərək partlayıb. Partlayış dalğası onu bir qədər kənara atsa da, silahdaşları yanına qaçarkən o, həmin vaxt yaralansa da, heç nə olmamış kimi ayağa qalxaraq mövqe tutub. İlk tibbi yardım göstərildikdən sonra yenidən ön cəbhəyə yollanan Elnur döyüş yoldaşlarına torpaqlarımız azad olunana qədər vuruşacağını, bu yolda şəhid olmağın isə şərəfli olduğunu bildirib və dəstənin tərkibində Kəlbəcər rayonunun dərinliklərinə doğru irəliləyib. Bir neçə gün sonra növbəti döyüş tapşırığından qayıdarkən Ömər aşırımı yaxınlığında işğalçıların atdıqları artilleriya mərmisinin partlaması nəticəsində Elnur aldığı növbəti ağır yaralardan şəhidlik zirvəsinə ucalıb.

Onunla döyüşən hərbçi yoldaşları deyirlər ki, Elnura hər zaman etibarlı yoldaş kimi güvəniblər. Müharibənin ilk günündən cəsurluq, iradə və dözüm göstərib. Yaralı hərbi qulluqçuların təxliyyəsinə kömək etməyə can atıb. Murovdağın zirvələrinə onun kimi cəngavərlərin qanı tökülüb.

Azərbaycan Respublikası Prezidentinin 15 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə əsgər E.Bağırov ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Elnur Bağırov döyüş meydanında verdiyi sözə sadiq qaldı - son nəfəsinədək vuruşdu və adını qəhrəmanlıq tariximizə yazdı. Bu gün onun adı Vətən uğrunda canından keçən qəhrəmanlar sırasında ehtiramla anılır. Şəhidin yarımçıq qalan arzularını isə ailəsi, doğmaları və silahdaşları yaşadır. Onun qardaşı, Cəlilabad Rayon Polis Şöbəsinin əməkdaşı polis serjantı Natiq Bağırov kimi. O, hər gün xidmətə başlayan andan yalnız qanunun keşiyində dayanmır, həm də qardaşının xatirəsini yaşadır. Çünki bir qardaş Murovdağın zirvəsində Vətənə sədaqətin ən ali nümunəsini göstərdisə, digəri bu gün həmin Vətənin asayişi və təhlükəsizliyi üçün xidmət edir.

*Yalçın Abbasov*

# Unutmadıq, unutmarıq!

## Xocalı faciəsinin qurbanları yad edilib



Fevralın 24-də Daxili İşlər Nazirliyinin Şəxsi Heyətlə İş İdarəsində Xocalı faciəsi zamanı şəhid olmuş polis əməkdaşlarının ailə üzvlərinin iştirakı ilə anım mərasimi keçirilib.

Əvvəlcə tədbir iştirakçıları işğalçılarla qeyri-bərabər döyüşlərdə qəhrəmancasına şəhid olan polis əməkdaşlarının, soyqırıma məruz qalmış xocalıların, eləcə də ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canını fəda edən həmvətənlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

İdarə rəisi polis polkovniki Elçin Məmmədli xalqımızın erməni millətçiləri tərəfindən əsrlər boyu dəfələrlə soyqırıma məruz qaldığını, Xocalıda da növbəti belə faciə ilə üzləşdiyini bildirib. Bu gün dövlət başçısı İlham Əliyevin birbaşa nəzarəti altında işğaldan azad edilmiş bütün ərazilərdə olduğu kimi, Xocalı rayonunda da həyatın yenidən canlandığı, məcburi köçkünlərin öz torpaqlarına qayıtdıqları vurğulanıb.

İdarə rəsi daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun adından qəhrəman şəhərin müdafiəsində şəhid olmuş polis əməkdaşlarının ailə üzvlərinə bir daha başsağlığı verib, onların problemləri və qayğıları ilə maraqlanıb.

Tədbirdə iştirak edən şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə ölkə və DİN rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

# Sabahın zabitləri…

## Ölkə üzrə gənclərlə görüşlər davam etdirilir

Ölkənin müxtəlif bölgələrində gənclərin polis peşəsinə marağının artırılması istiqamətində ardıcıl görüşlər davam etdirilir. Bu təşəbbüslər yalnız rayon polis şöbələri ilə məhdudlaşmır, bəzi məktəblər də öz məzunları olan və hazırda Polis Akademiyasında təhsil alan kursantları dəvət edərək şagirdlərlə görüşlər təşkil edirlər.

Bu istiqamətdə şagirdlərlə növbəti görüş Nəsimi rayonunda keçirilib.



Tədbirdə Rayon Polis İdarəsinin şəxsi heyəti, müəllimlər və digər ictimaiyyət nümayəndələri iştirak ediblər. Gələcəkdə Akademiyada təhsil almaq istəyən şagirdlərə uğurlar və qəbul imtahanlarında müvəffəqiyyət arzulanıb. Sonda şagirdlər Nəsimi RPİ-də Növbətçi Hissə, Müvəqqəti Saxlanma Yeri, "Təhlükəsiz Şəhər" otağı, Kriminalist Tədqiqatlar Bölməsi, eləcə də Post-Patrul Xidməti taborunun fəaliyyəti ilə yaxından tanış olub, xüsusi təyinatlı polis əməkdaşlarının təlimlərini izləyiblər.

Tədbirlər paytaxtla yanaşı bölgələrdə də intensiv şəkildə davam etdirilir. Xaçmaz Rayon Polis Şöbəsində Polis Akademiyasına qəbul olmaq istəyən abituriyentlər və onların valideynləri ilə keçirilən maarifləndirici görüşdə şöbənin rəisi, polis polkovniki Samir Məcidov polis peşəsinin cəmiyyət üçün əhəmiyyətindən danışıb, bu şərəfli yolu seçmək istəyən gənclərə tövsiyələrini verib. Görüşdə həmçinin son illərdə Polis Akademiyasını bitirərək hazırda Xaçmaz RPŞ-də xidmət edən əməkdaşlar da iştirak ediblər. Onlar qəbul prosesindəki təcrübələrini bölüşüb, abituriyentləri maraqlandıran sualları cavablandırıblar.

Yuxarı sinif şagirdləri və onların valideynləri ilə Lerik Rayon Polis Şöbəsində də görüş təşkil olunub. Akademiyada təhsil alan kursantların iştirakı ilə keçirilən görüşdə tədris müəssisəsində təhsilin təşkili, qəbul qaydaları, kursantlar üçün yaradılmış şərait, tədris proqramı, eləcə də praktiki hazırlıq mərhələləri barədə ətraflı məlumat verilib.

Zaqatala, Qax və Kürdəmir məktəbləri ilə də anoloji görüşlər keçirilib, məktəblilərə Akademiyaya qəbul qaydaları barədə geniş məlumat verilib.

# Dəfinə axtaranların axırı...

## Vurduqları ziyana görə saxlanılıblar

Qaradağ rayonunda qabaqcadan əlbir olan bir qrup şəxs dövlət tərəfindən xüsusi qorunan təbiət ərazilərinin mühafizə qaydalarını pozaraq qızıl axtarmaq məqsədilə Milli Tarix-Bədii Qoruqlardan birinin ərazisinə qanunsuz daxil olublar.

Onlar qoruqdakı mədəni sərvət hesab olunan qayaların dibində qazıntı işləri apararaq xüsusi maddi dəyəri olan əşyalar talamağa cəhd göstərib və nəticədə mədəni sərvətlərin yararsız hala salınmasına səbəb olublar.

Qaradağ Rayon Polis İdarəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 42 yaşlı Kamil Ömərov, 59 yaşlı Məmmədrəsul İbrahimov, 41 yaşlı Əkbər Əkbərov, 50 yaşlı Niyaməddin Əliyev və 47 yaşlı Elşad İsgəndərov müəyyən olunaraq saxlanılıblar.

Həmin şəxslər öz əməllərini mobil telefonları vasitəsilə də lentə alıblar. Araşdırmalar davam etdirilir.

# Oğruların divanı

## Keçmiş məhkumların yeni cinayəti



Sabunçu rayonu ərazisində silsilə oğurluq hadisələri qeydə alınıb. Belə ki, gecə saatlarında naməlum şəxslər ümumilikdə 7 evə daxil olaraq dəyəri 10 min manata yaxın elektrik naqillərini oğurlayıblar. Onlar əməllərini ört-basdır etmək üçün bəzi evlərdə quraşdırılan müşahidə kameralarını da sındırıblar.

Sabunçu Rayon Polis İdarəsi 42-ci Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə talama cinayətlərini törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 41 yaşlı Arif Sultanov və 29 yaşlı Cəfər Cəfərquliyev saxlanılıblar.

Araşdırmalarla saxlanılan şəxslərin oğurladıqları naqilləri əlvan metal qəbulu məntəqələrinə satdıqları məlum olub.

Daha bir fakt Zabrat qəsəbəsində qeydə alınıb. Naməlum şəxs qəsəbədəki market, eləcə də üç evdən pul, tamir-tikinti alətləri və məişət əşyaları talayıb.

Sabunçu RPİ-nin 15-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə qeyd olunan əməlləri törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 49 yaşlı S.Mirzəyev müəyyən edilərək saxlanılıb. Araşdırmalarla məlum olub ki, o, bir müddət müşahidə aparıb zərərçəkənlərin evdə olmadığını dəqiqləşdirdikdən sonra mağaza və evləri talayıb.

Zabrat qəsəbəsində keçirilən digər tədbir nəticəsində isə elektrik naqilləri oğurlamaqda şübhəli bilinən, əvvəllər dəfələrlə məhkum olunmuş 45 yaşlı R.Poladov da saxlanılıb. Araşdırma aparılır.

# Xidmət nümunəsi

## Məsuliyyətli xidmət ictimai etimadı gücləndirir

**Şübhəsiz ki, polisin maddi-texniki təminatı onun vəzifələrini daha səmərəli yerinə yetirməsinə şərait yaradır, imkanlarını genişləndirir. Ancaq istənilən halda əsas amil insan faktorudur. Çünki nəticəni əməkdaşın peşəkarlığı, məsuliyyəti və işinə sədaqəti müəyyən edir. Xidmətə çıxan hər bir əməkdaşın davranışı və peşə etikası bütövlükdə cəmiyyətin polis haqqında formalaşdırdığı fikrə təsir göstərir və etimad yaradır.**



Bu günlərdə Bakı Ağır Cinayətlər Məhkəməsində yaşanan hadisə bunun önəminə bir daha diqqət çəkdi.

Məlumata görə, məhkəmə prosesi başa çatdıqdan sonra zala baxış keçirən Nəsimi Rayon Mühafizə Polisinin əməkdaşları - polis baş serjantı Həsən Məmmədov, polis serjantı Şakir Novruzov və polis sıravisi Elgün Əliyev tərəfindən vətəndaşa məxsus pulqabı aşkar edilib. Pulqabının içərisində isə 2600 ABŞ dolları olub.

Əməkdaşlar dərhal təhlükəsizlik kameralarına baxış keçirərək pulqabısını zalda unudan şəxsin kimliyini müəyyənləşdiriblər. Qısa müddət ərzində həmin vətəndaşla əlaqə saxlanılıb və pulqabı içindəki vəsaitlə birlikdə sahibinə təqdim edilib.

Bəlkə də, bu addım ilk baxışdan adi hadisə təsiri bağışlayır, amma polisin vətəndaşa xidmətinin əsl mahiyyətini çox aydın göstərir.

Digər tərəfdən, məhkəmələr adətən emosional gərginliyin yüksək olduğu məkanlar sayılır. Zərərçəkənlər, təqsirləndirilən şəxslərin yaxınları, şahidlər və digər iştirakçılar müxtəlif psixoloji durumda olurlar. Belə şəraitdə xidmət aparmaq ayrıca diqqət, həssaslıq və təmkin tələb edir. Əməkdaşın istənilən davranışı orada ictimai rəyə birbaşa təsir göstərir. Ona görə polis əməkdaşı tərəfindən itirilmiş pulun tapılaraq sahibinə qaytarılması məhkəmədə ədalətin təmin olunması anlayışını tamamlayan və vətəndaşı bu ədalətə inandıran davranışdır.

Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsində adları sadalanan əməkdaşlarla bərabər bir qadın polis nəfəri də xidmətə cəlb olunur. Hər təlimat zamanı vətəndaşlarla nəzakətli ünsiyyət və davranış qaydaları ətraflı izah edilir. Səbrlə dinləmək, təmkinli davranmaq və qanun çərçivəsində hərəkət etmək əsas prinsip kimi müəyyənləşdirilib.

# Şəxsi məlumatların qorunması niyə vacibdir?

## Rəqəmsal təhlükəsizlik hər kəsin şəxsi məsuliyyətidir

**Müasir dövrdə informasiya ən qiymətli resurslardan birinə çevrilib. Artıq mobil telefonumuz, sosial şəbəkə hesablarımız, onlayn bank xidmətlərimiz və elektron poçt ünvanlarımız gündəlik həyatımızın ayrılmaz hissəsidir. Lakin bu, rahatlıqla yanaşı, ciddi risklərə də yol açır.**

Şəxsi məlumatların qorunması yalnız texniki məsələ deyil, həm də ictimai təhlükəsizlik məsələsidir.

### Kibercinayətkarlığın artan təhlükəsi

Son illərdə kibercinayətkarlıq metodları və informasiya-kommunikasiya üsullarından istifadə olunmaqla törədilən hüquqpozmalara dair statistik göstəricilər dünyanın ən inkişaf etmiş ölkələrində belə artmaqdadır. Beynəlxalq Polis Təşkilatı - İnterpol öz hesabatlarında qeyd edir ki, saxta səhifələrin yaradılması, bank kartı məlumatlarının ələ keçirilməsi və sosial mühəndislik üsulları ilə edilən dələduzluqlar ən geniş yayılmış cinayət növlərindəndir. Bu cinayətlərin hədəfi isə məhz vətəndaşların şəxsi məlumatlarıdır.

Şəxsi məlumat dedikdə ad, soyad, şəxsiyyət vəsiqəsinin nömrəsi, ünvan, telefon nömrəsi, bank kartı rekvizitləri, sosial media hesablarına giriş məlumatları və hətta biometrik göstəricilər nəzərdə tutulur. Bu məlumatların üçüncü şəxslərin əlinə keçməsi maddi zərər, nüfuz itkisi və psixoloji gərginlik kimi ağır nəticələrə səbəb ola bilər. Məsələn, kiberdələduzlar vətəndaşın adına kredit rəsmiləşdirə, bank hesabını boşalda və ya onun adından qanunsuz əməliyyatlar həyata keçirə bilərlər.

### Səhlənkarlıq - gizli təhlükə

Rəqəmsal təhlükəsizlik yalnız polis orqanlarının deyil, hər bir vətəndaşın şəxsi məsuliyyətidir. Ən güclü təhlükəsizlik sistemi belə istifadəçinin səhlənkarlığı qarşısında zəif qala bilər. Sadə təhlükəsizlik qaydalarına əməl etməklə bir çox risklərin qarşısını almaq mümkündür. Güclü və unikal şifrələrdən istifadə etmək, iki mərhələli identifikasiya sistemini aktivləşdirmək, naməlum keçidlərə daxil olmamaq, sosial şəbəkələrdə şəxsi məlumatları açıq şəkildə paylaşmamaq əsas qoruyucu tədbirlər sırasındadır.

Eyni zamanda vətəndaşlar bilməlidirlər ki, rəsmi qurumlar heç vaxt telefon zəngi və ya mesaj vasitəsilə bank kartının tam məlumatını, CVV kodunu və ya təsdiq kodunu tələb etmirlər. Belə hallarla qarşılaşdıqda dərhal polis orqanlarına və ya bankın rəsmi qaynar xəttinə müraciət etmək vacibdir. Operativ məlumatlandırma kibercinayətlərin qarşısının alınmasında mühüm rol oynayır.

### Maarifləndirmə və birgə məsuliyyət

Xüsusilə gənclər və yeniyetmələr arasında rəqəmsal savadlılığın artırılması böyük əhəmiyyət daşıyır. İnternet mühitində məsuliyyətli davranış formalaşdırılmadıqda şəxsi məlumatların düşünülmədən paylaşılması gələcəkdə ciddi problemlərə yol aça bilər. Valideynlər və təhsil müəssisələri bu



istiqamətdə maarifləndirici işləri gücləndirməlidirlər.

Dövlət səviyyəsində də şəxsi məlumatların qorunması prioritet məsələlərdən biridir. Müvafiq qanunvericilik bazası təkmilləşdirilir, kibertəhlükəsizlik üzrə xüsusi bölmələr fəaliyyət göstərir və vətəndaş müraciətləri araşdırılır. Lakin texnologiyalar inkişaf etdikcə cinayət üsulları da mürəkkəbləşir. Bu səbəbdən hər bir şəxs öz rəqəmsal "qapısını" möhkəm bağlamağı bacarmalıdır.

Unutmayaq ki, şəxsi məlumatlarımız bizim kimliyimizdir. Onu qorumaq isə həm özümüzə, həm ailəmizə, həm də cəmiyyətə qarşı məsuliyyətimizdir. Rəqəmsal dünyada təhlükəsiz olmaq üçün diqqətli, məlumatlı və ayıq-sayıq olmaq kifayətdir. Təhlükəsizlik kiçik addımlarla başlayır, böyük problemlərin qarşısını isə məhz vaxtında görülən tədbirlər alır.

*Aytən Tahirova*

# Minifutbolçularımız növbəti mərhələdədir

## DİN İdman Cəmiyyəti mübarizəni "pley-off"da davam etdirir



2025/2026 mövsümü üzrə minifutbol üzrə Azərbaycan çempionatında DİN İdman Cəmiyyəti pley-off mərhələsinə vəsiqə qazanıb.

Komanda bu müddət ərzində çıxdığı qarşılaşmalarda nümayiş etdirdiyi oyunla turnirdə iddialı olduğunu bir daha göstərib. Çempionatın 15-ci turunda komandamız "Cənub Storm" üzərində 4 - 5 hesabı ilə qələbə qazanıb.

Bununla da minifutbol üzrə ölkə çempionatında 1/8 finalın bütün cütlükləri müəyyənləşib. Turnir cədvəlini vahid lider kimi tamamlayan "Zirə" və "DİN" İdman Cəmiyyətinin komandaları görüşüb. İki oyundan ibarət olan bu mərhələnin ilk qarşılaşmaları fevralın 25-də keçirilib.

Cavab matçları bir həftə sonraya nəzərdə tutulub.

# DİN dövlət qurumları arasında çempiondur

## Üzgüçülərimiz qızıl medal qazandılar



Fevralın 24-də Bakı Su İdmanı Sarayında Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə dövlət qurumlarının əməkdaşları arasında üzgüçülük yarışına yekun vurulub.

Yarışda müxtəlif dövlət qurumlarının kişi və qadınlardan ibarət komandaları əzmlə mübarizə aparıblar.

Yarışlar şəxsi, estafet və qarışıq komanda kateqoriyaları üzrə keçirilib.

Daxili İşlər Nazirliyinin 9 nəfərdən ibarət komandası 5 kişi və 4 qadın olmaqla yüksək nəticələr əldə edib. Yarışda komandaya rəhbərliyi DİN İdman Cəmiyyətinin şöbə rəisi polis polkovniki Eduard Məmmədov edib.

Belə ki, şəxsi birincilikdə Bakı şəhər BPİ-nin DYPİ-yə bilavasitə tabe olan YPXA-nın Növbətçi hissəsinin baş növbətçi-inspektoru polis kapitanı Emil İbrahimov kişilər arasında 50 metr məsafədə bütün rəqiblərinə qalib gələrək yarışın qızıl medalına layiq görülüb.

Baş Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi polis polkovniki Toğrul Sadıqov 50 metr məsafədə gümüş, Diplomatik nümayəndəliklərin mühafizəsi üzrə Əlahiddə Polis Taborunun polis nəfəri Məhəmməd Həbibzadə isə bürünc medal qazanıb.

Kişilər arasında estafet yarışında da Emil İbrahimov, Toğrul Sadıqov, Məhəmməd Həbibzadə və Sumqayıt Şəhər Polis İdarəsinin PPXT-nin tağım komandiri Cavidan Cahangirovdan ibarət komandamız birinci yerə çıxıb.

Nazirliyin qadınlardan ibarət komandasını DİN Əlahiddə Çevik Polis Alayının xüsusi təyinatlı taborunun manqa komandiri Nigar İsmayılova, Alayın xüsusi təyinatlı taborunun polis nəfəri Fatimə Dünyamalıyeva və Nərimanov RPİ-nin PPXB-nin polis nəfərləri Nəzrin Hüseynova ilə Nuriyyə Axundova təmsil edib.

Qarışıq və estafet yarışlarında DİN-in qadınlardan ibarət komandası 3-cü yerə çıxaraq bürünc medal qazanıb.

Qaliblərə medal və diplomlar təqdim edilib.

# "Tütün müharibəsi" sona çatdı

## Transmilli cinayətkar şəbəkənin rəhbəri həbs edildi



Son illərdə beynəlxalq mediada tez-tez rast gəlinən ifadələrdən biri də "tütün müharibəsi"dir. İlk baxışda bu anlayış hərbi qarşıdurmanı xatırlatsa da, əslində söhbət qanunsuz tütün bazarına nəzarət uğrunda cinayətkar qruplar arasında gedən mübarizədən gedir. Xüsusilə Avstraliyada müşahidə olunan bu proses polis orqanlarının diqqət mərkəzinə çevrilib və transmilli cinayətkarlıqla mübarizə sahəsində yeni çağırışlar yaradıb.

### İraqa qədər uzanan cinayət "izi"

Bu ilin əvvəlində İraqda keçirilən əməliyyat ilk baxışdan sıradan tədbir kimi görünsə də, beynəlxalq ictimaiyyət üçün olduqca böyük önəmi var idi. Belə ki, uzun illər Avstraliyada beynəlxalq cinayətkar şəbəkəyə rəhbərlik edən "Kaz" ləqəbli Kazem Hamad İraqda saxlanıldı. Bu əməliyyat transmilli cinayətkarlıqla mübarizədə son illərin ən diqqətçəkən hadisələrindən biri kimi qiymətləndirilir.

Qeyd edək ki, sözügedən əməliyyat İraq ərazisində keçirilsə də, Avstraliya federal polisi ilə koordinasiyalı şəkildə reallaşıb.

### "Kaz" kimdir?

Kazem Hamad qeyri-qanuni tütün bazarı uğrunda silahlı qarşıdurmalar və mediada "tobacco wars" ("tütün müharibəsi") kimi tanınan hadisələrlə əlaqələndirilir. O, həmçinin narkotik qaçaqmalçılığı ilə bağlı ittihamlarla da gündəmə gəlib. Əvvəllər narkotik cinayətinə görə cəza çəkən Hamad sonradan Avstraliyadan İraqa deportasiya olunub. Amma deportasiyadan sonra da Avstraliyada qeyri-qanuni tütün dövriyyəsi ilə bağlı silahlı insidentlərin, obyektlərin yandırılması və hədə-qorxu yolu ilə tələb etmə hallarının təşkilində iştirak edib. Polis orqanları bu hadisələri tütün bazarına nəzarət uğrunda rəqib qruplar arasında gedən mübarizə kimi xarakterizə edirdilər. İstintaq materiallarında Hamadın adı bu qarşıdurmaların əsas koordinatorlarından biri kimi göstərilirdi. Bu əməliyyat transmilli cinayətkarlığa qarşı beynəlxalq əməkdaşlığın real nəticə verdiyinin növbəti əyani sübutudur.

*L.Babayeva*

# Rəssam yoxsa kriminalist?

## Üz cizgilərindən insan psixologiyasını oxuyan Renessans dahisi - Leonardo da Vinçi



Leonardo da Vinçi yalnız dahi rəssam deyil, həm də erkən kriminalistika ideyalarının qabaqcıl nümayəndələrindən biri hesab olunur. O, insan üzünün xüsusiyyətlərini və mimikalarını əks etdirən eskizlər hazırlayır, üz ifadələrinin insan xarakteri və davranışları haqqında məlumat verə biləcəyini araşdırırdı.

Da Vinçi insan anatomiyasını dərindən öyrənərək üz cizgilərinin psixoloji məna daşıdığını göstərməyə çalışırdı. O, gözlərin, qaşların, ağızın və digər detalların fərqli emosional vəziyyətləri əks etdirdiyini qeyd edirdi. Bu yanaşma sonralar üz tanıma və identifikasiya üsullarının formalaşmasına dolayısı ilə ilham verən ideyalar kimi qiymətləndirilir. O dövrdə cinayətkarların portretlərinin çəkilməsi nadir praktika idi. Leonardo isə belə təsvirlərin təhlükəli şəxslərin tanınmasına və identifikasiyaya kömək edə biləcəyini düşünürdü. Anatomik dəqiqliyi sənətkarlıqla birləşdirən bu eskizlər insanın vizual identifikasiyasına yeni baxış gətirirdi. Da Vinçinin araşdırmaları müasir kriminologiya və profilinq anlayışlarının erkən nümunələri kimi dəyərləndirilir. Onun metodlarının bir çoxu əsrlər sonra polis və kriminal laboratoriyalarda inkişaf etdirilən yanaşmalarla səsləşir.

Bu gün istifadə olunan üz tanıma texnologiyaları tamamilə müasir elmi əsaslara söykənsə də, insan üzünün detallı müşahidəsi və vizual analiz prinsipi Da Vinçinin əsərlərində də aydın görünür. O, eyni zamanda insanın emosional vəziyyətini mimikalar vasitəsilə anlamağa çalışır, psixologiya ilə vizual analizi birləşdirirdi.

Da Vinçinin bu yanaşması kriminalistikanın həm elmi, həm də incəsənət tərəfini vurğulayır. Bu gün də bir çox mütəxəssis onun eskizlərini insan davranışının vizual təhlilinə dair erkən nümunələr kimi qiymətləndirir. Nəticədə, Leonardo da Vinçi yalnız sənət tarixində deyil, analitik düşüncənin inkişafında da mühüm rol oynamış şəxsiyyət kimi xatırlanır.

*A.Tahirova*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik